*Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 2, 2025*

https://doi.org/10.59849/2410-5600.2025.2.87

UOT: 930.85; 94(479.242).

**Səba Verdiyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: aze_seba@yahoo.com*

# ORTA ƏSRLƏRDƏ NAXÇIVAN ELMİ MÜHİTİNİN GÖRKƏMLİ XADİMLƏRİ HAQQINDA

**Xülasə**

Azərbaycanın ədəbi-bədii və ictimai-fəlsəfi fikir tarixində, o cümlədən onun ədəbi mühitinin ən qədim dövrlərdən bu günə kimi formalaşmasında və inkişafında müstəsna xidmətləri olan alimlərin, filosofların, söz ustalarının həyat, yaradıcılığı və fəaliyyətinin tədqiqi ədəbiyyat elmimizin qarşısında duran aktual problemlərdən biridir. Həmin problemlər sırasında Naxçıvan ədəbi mühitinin və bu mühitin yetişdirdiyi şəxsiyyətlərin taleyinin, sənətinin, çoxşaxəli fəaliyyətinin öyrənilməsi xüsusi yer tutur.

Əsrlər boyu Naxçıvan Azərbaycan elminin əsas inkişaf mərkəzlərindən biri olmuşdur. Onun qədim karvan yolları üzərində yerləşməsi, tranzit əlaqələri, bir sıra dövlətlərlə həmsərhəd olması, Şərqə və Qərbə çıxışı qədim zamanlardan Naxçıvanda elmin inkişafına şərait yaratmışdır. XIII-XIV əsrlərdəki istilalar zamanı Naxçıvan ərazisi döyüş meydanına çevrilsə də, ölkə böhran vəziyyətində olsa da, elmin bütün sahələri öz inkişafını davam etdirirdi. Orta əsrlərdə fəaliyyət göstərən mədrəsələr həm də mühüm elm mərkəzi funksiyasını yerinə yetirirdi. Bütün bunlar Naxçıvan elminin inkişafına təkan verən əsas amillərdən biri idi. Marağa rəsədxanasının banisi, görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi də daxil olmaqla, əslən naxçıvanlı olan və Azərbaycan elminin formalaşmasında xüsusi rol oynamış saysız-hesabsız görkəmli alimlər vardır.

Azərbaycanın digər qabaqcıl elm və təhsil ocaqlarında olduğu kimi, XIII-XVI əsrlərdə Naxçıvanda da elm sahəsində müəyyən inkişaf olmuş, bölgədə bir sıra görkəmli alimlər yetişmişdir. Məqalədə XIII-XVI əsrlər Naxçıvan elmi-ədəbi mühitinin inkişafında əvəzsiz xidmətləri olan ensiklopedik alim Xacə Məhəmməd Nəsrəddin Tusi, Qazi Nəcməddin ibn Əhməd ibn Əbubəkr ibn Məhəmməd Naxçıvani, tibb sahəsində biliyi olan Kəmaləddin Əbülfəzail Məhəmmədzəil ibn Əbülfəz, Səncər ibn Abdulla, XIV əsr Məşhur ədəbiyyatşünas Fəxrəddin Hinduşah Naxçıvani, Məhəmməd ibn Hinduşah Naxçıvani, Baba Nemətullah Naxçıvani kimi məşhur alimlərin yaradıcılığından bəhs etmişik.

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, elm, alim, filosof, fəaliyyət*

## Giriş

*Naxçıvan Azərbaycanın qədim və mədəni zənginliklərlə dolu bölgəsi olaraq, təkcə ölkəmizin deyil, bəşəriyyətin mədəniyyət və elm tarixində də əhəmiyyətli yer tutur. Bu əzəmətli torpaq, təkcə maddi-mədəni irsi ilə deyil, həm də yüzlərlə illik tarixi, mədəniyyəti və elmi inkişafı ilə diqqət çəkir. Naxçıvan Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olaraq, hələ paleolit dövründən etibarən yerli və beynəlxalq əhəmiyyətə sahib mədəniyyətlərin beşiyi olmuşdur. Bölgənin tarixi abidələri, qədim şəhər mədəniyyəti və zəngin mədəniyyət nümunələri, Naxçıvanın dünya tarixindəki mövqeyini gücləndirir.*

*XIII-XVI əsrlər, Naxçıvanın elm və mədəniyyət sahəsində zirvə dövrünü yaşadığı bir zaman kəsiyini təşkil edir. Hülakülər dövründə bu bölgə, xüsusilə Marağa Rəsədxanası kimi böyük elmi*

*mərkəzləri ilə tanınmış və elm dünyasında böyük nüfuz qazanmışdır. Naxçıvanın bu dövrdə yetişdirdiyi alimlər fəlsəfə, riyaziyyat, astronomiya, tibb və digər elm sahələrindəki böyük nailiyyətləri ilə yalnız öz dövrünü deyil, bütün insanlıq tarixini zənginləşdirmişdir. Nəsrəddin Tusi, Qazi Nəcməddin Naxçıvani, Kəmaləddin Naxçıvani, Fəxrəddin Naxçıvani və digər görkəmli alimlər, bu bölgənin dünya elminə verdiyi dəyərli töhfələri təcəssüm etdirir. Bu məqalə, Naxçıvanın XIII-XVI əsrlər arasında yetişdirdiyi bu dahi alimlərin həyatı və elmi irsini araşdırmaqla, bu zəngin mədəniyyətin bəşəriyyətin inkişafına olan təsirini öyrənməyi məqsəd qoyur.*

Naxçıvan Azərbaycanın qədim tarixə malik regionlarından biri olduğundan buradakı qədim tarixi abidələr, maddi-mədəniyyət nümunələri təkcə Azərbaycanın deyil, bəşəriyyətin təşəkkül tapdığı ən qədim yaşayış məskənlərindən biri olduğunu da sübut edir. Naxçıvan mədəni abidələriylə yanaşı, həm də müxtəlif fəaliyyət sahələrində ölkəmizə əvəzsiz xidmət göstərmiş görkəmli tarixi şəxsiyyətləri ilə də məşhurdur. Bu da Naxçıvanın həm maddi-mədəni, həm də mənəvi baxımdan zəngin bölgəsi olduğunu göstərir.

Zəngin tarixə, böyük elmi irsə malik Azərbaycan xalqı tarix boyu görkəmli ictimai xadimlər yetirmişdir. Bu baxımdan Azərbaycanın ən qədim diyarı, şəhər mədəniyyətinin 5000 ildən artıq yaşı olan Naxçıvan torpağı tarixə tanınmış sülalələr, görkəmli şəxsiyyətlər bəxş etmişdir. Naxçıvan bilindiyi kimi, bir çox dahi şəxsiyyətin doğulduğu torpaqdır ki, bu cür insanlar dünyaya az-az gəlirlər. Belə liderlər, elmi xadimlər, ədəbi simalar, dünyada barmaqla sayılacaq qədərdir. Bəxtimizə belə sənətkarların düşməsi heç də təsadüf deyil. Nuh nəfəsli torpağın yetişdirdiyi istedadlar bu torpaqdan mayalanaraq boya-başa çatmışlar, yetişmişlər.

XIII-XVI əsrlərdə Naxçıvan nəinki Azərbaycanın, bütövlükdə Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalmışdır. Bunun əsas səbəblərindən biri Naxçıvanın da daxil olduğu Hülakülər dövlətində təhsilə, elmə diqqət verilməsi, xüsusilə, dövlətin baş vəziri Şəmsəddin Cüveyninin həyata keçirdiyi tədbirlərin elmin inkişafı üçün münbit şərait yaratması idi. Ona görə də XIII-XVI yüzilliklərdə Naxçıvandan bir sıra görkəmli alimlər yetişmiş və onlar Azərbaycanın daxil olduğu Hülakülər və Cəlairilər dövlətinin əhatə etdiyi ərazilərdə, həmçinin dünyanın bir sıra ölkələrində tanınmış və məşhurlaşmışlar.

Bu baxımdan əslən Naxçıvandan olan görkəmli ensiklopedik alim **Xacə Məhəmməd Nəsrəddin Tusinin** (1201-1274) adını ilk növbədə qeyd etmək lazımdır. Nəsrəddin Tusinin atası Firuz şah gənc yaşlarında təhsil almaq üçün Ordubaddan Tus şəhərinə getmiş, orada yaşamışdır. Tusda anadan olan və orada təhsil alan Nəsrəddin "Tusi" nisbəsini də burada qəbul etmişdir. Ancaq Tusinin xələflərinin bəziləri sonradan doğma yerlərə qayıtmış, orada sələflərinin yanında – Naxçıvanda və Ordubadda məskunlaşmışlar. Elmdə çox böyük nailiyyətlər qazanan Nəsrəddin Tusinin bir alim kimi fəaliyyətində 1259-cu ildə yaratdığı Marağa Rəsədxanası mühüm yer tutur. Tusi ilə birlikdə Azərbaycanın və dünyanın bir sıra görkəmli alimlərinin çalışdığı 400 min əlyazmaya malik kitabxanası olan və 100-dən artıq alimin fəaliyyət göstərdiyi Rəsədxana qısa müddətdə Şərqin ən böyük və mükəmməl elmi-tədqiqat mərkəzlərindən birinə çevrilmişdir. Bu rəsədxana Avropa elminin inkişafına, Uluqbəy, Çaypur, Pekin və bir çox Qərb ölkələrinin rəsədxanalarının elmi fəaliyyətinə böyük təsir göstərmişdir. Alimin dövrümüzə qədər çox zəngin elmi irsi gəlib çatmışdır. Onun bir sıra əsərləri, o cümlədən, "Zic Elxani" ("Elxani cədvəlləri"), "Üstürlab" ("Astrologiya"), "Şəkkül-qita" ("Kəsişmələr şəkli"), "Əxlaqi-Nasiri, "Cavahirnamə" və sair tədqiqatları bugün də öz əhəmiyyətini saxlamaqdadır. Xüsusən, "Əxlaqi-Nasiri" əsərindən uzun dövr ərzində mədrəsələrdə dərslik kimi istifadə edilmişdir. Bir çox elmi kəşfləri Avropa alimlərindən qabaq meydana çıxaran Nəsrəddin Tusi öz zamanında Şərq aləmində qüdrətli alim və böyük şəxsiyyət kimi qəbul edilmişdir. Elmdə ucaldığı yüksək zirvəyə görə, Nəsrəddin Tusinin qəbirüstü xatirə abidəsinin üzərində "Elmin köməkçisi, elm ölkəsinin şahı, dövr anası hələ belə oğul doğmamışdır" sözləri həkk olunmuşdur. Bu böyük şəxsiyyət Şərqdə Akademiyanın əsasını qoymuşdur. [1, s. 611]

Naxçıvanın XIII əsr alimlərindən **Qazi Nəcməddin ibn Əhməd ibn Əbubəkr ibn Məhəmməd Naxçıvaninin** yaradıcılığı da diqqəti cəlb edir. Nəcməddin Naxçıvani təxminən XII əsrin sonlarında Naxçıvanda anadan olmuş, burada mükəmməl təhsil alaraq, dərin bilik qazanmışdır. O, Nəsrəddin Tusinin yaratdığı və rəhbərlik etdiyi Marağa Rəsədxanasında çalışmışdır. Nəcməddin Naxçıvani

dövrünün bütün elmlərini dərindən öyrənmiş, hərtərəfli hazırlığa malik olmuşdur. Müasirləri onu "bütün elmlərdə və fənlərdə dalğalı dənizə və yağışlı buluda" bənzətmiş, dini elmlərlə yanaşı, dünyəvi elmlərə də bələd olmuşdur. O, elmdə bir çox nailiyyətlər əldə etmiş, hətta məşhur Əbu Əli İbn Sinanın "Tibb qanunu", "İşarələr və qeydlər" əsərlərinə şərh və tənqid də yazmışdır. Nəcməddin Naxçıvaninin şərhlərində "Tibb qanunu" əsərinin təhlili verilmiş, onun müsbət cəhətləri yüksək qiymətləndirilməklə bərabər, bəzi nöqsanları göstərilmiş, hətta İbn Sinanın bir sıra nəzəri mühakimələri "köhnə" və "xülya" adlandırılmışdır. Nəcməddin Naxçıvaninin "Məntiqin məğzi və fəlsəfənin xülasəsi" adlı risaləsi orta əsrlərdə fəlsəfəyə dair ən qiymətli əsərlərdən biri kimi qəbul olunmuşdur. Bu qiymətli fəlsəfi əsərin əlyazması hazırda İraqın Nəcəf şəhərindəki Əl-Məşhəd-Əl əlvin Kitabxanasının əlyazmalar fondunda mühafizə olunur. [4, 179.]

Hülakülər dövründə Əmir Cəlaləddin Qaratayın vəziri vəzifəsində çalışan Nəcməddin Naxçıvani sonralar siyasi fəaliyyətdən uzaqlaşmış, özünü elmə həsr etmişdir. Nəcməddin Naxçıvani 1206-cı ildə Hələbdə vəfat etmişdir.

XIII yüzillikdə yaşamış naxçıvanlı alimlərdən **Kəmaləddin Əbülfəzail Məhəmməd ibn Əbülfəzail ən-Naxçıvani** tibb sahəsində böyük şöhrət qazanmış, müayinə və müalicə üzrə zəngin biliyə malik şəxs olmuşdur. Yüksək həkimlik qabiliyyəti ilə yanaşı, yaxşı yuxuyozma bacarığı olan Kəmaləddin məşhur filosof, sufi şeyxi Qütbəddin əl-Əhərinin zaviyəsində yaşamış, ondan dərs almışdır.

Naxçıvanda yetişən görkəmli alimlərdən biri də dövrünün məşhur fəqihi (hüquqşünası) **Fəxrəddin Əbülfəzl Məhəmməd ibn Deyləm ən-Naxçıvani** (1279-cu ildə Gilanda vəfat etmişdir) həm də tanınmış dövlət xadimi idi. Adlı-sanlı vəzirlər ailəsinə mənsub olan, monqolların hakimiyyətinə qədər və monqollar dövründə Naxçıvanda maliyyə divanında xidmət etmişdir. Sonrada o, Əhərə getmiş və məşhur sufi şeyxi Qütbəddin Əbdülqadir ibn Həmzə əl-Əhəridən dərs alaraq, ona xidmət etmişdir. İbn əl-Fuvati onu Əhərdə və Marağada gördüyünü yazır və xüsusi olaraq qeyd edir ki, Nəsrəddin Tusi onu yüksək qiymətləndirmişdir. Dövrünün tanınmış hüquqçusu olan Fəxrəddin Naxçıvani həm də fars dilində qəzəllər yazmışdır.

XII-XIII əsrlərin görkəmli şəxsiyyətlərindən **Səncər ibn Abdulla** dövrünün böyük sülalə başçısı kimi tanınmışdır. Mənbələrdən öyrənirik ki, Səncər Naxçıvani Abdulla oğlunun övladları "Nəsirəddin Qütlüqşah, Fəxrəddin Hinduşah, İzhəddin Dövlətşah, Hüsaməddin Toğanşah, nəvəsi Məhəmməd ibn Hinduşah, nəticəsi Kəmaləddin ibn Məhəmməd (Naxçıvanilər) elmin müxtəlif sahələrində tanınmış, dövlət idarəçiliyinin ayrı-ayrı sahələrində çalışmışlar. [4, s.180]

Az əvvəl də qeyd etdiyimiz kimi, Elxanlılar dövründə ölkə çiçəklənmə dövrünü yaşamışdır. Bu dövlətin zamanında astronomiya (nücum), riyaziyyat, tibb, fəlsəfə, tarix və coğrafiya kimi elm sahələrində tanınmış elm xadimləri yetişdi, möhtəşəm əsərlər yazıldı. Nəsirəddin Tusinin yaratdığı Marağa rəsədxanası şərqdə nücum elminin mərkəzinə çevrildi. Bu şəraitdə bir sıra elm xadimləri, tanınmış sülalələr məmləkətini tərk edərək şərqin məşhur mədəniyyət mərkəzi halına gəlmiş Təbrizə, Marağaya yerləşmişdilər. Bu sülalələrdən biri Səncər ibn-Abdullah ən-Naxçıvani sülaləsidir. Nəvə Məhəmməd Naxçıvaninin bildirdiyinə görə, bu sülalə indiki Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin Kiran (indiki Gilan şəklində işlənir) şəhərindən çıxıb. Səncərin beş oğlu və bir nəvəsi Elxanlılar dövründə görkəmli dövlət və elm xadimləri kimi tarixə düşmüşlər. Hər şeydən əvvəl qeyd edək ki, Səncər oğulları öz adında "əs-sahibi" titulunu da daşımışlar. Son dövr araşdırmalarında təsbit edilmişdir ki, həmin titul görkəmli elm xadimi "Tarixi-Cihanquşa" əsərinin müəllifi Əlaəddin Ataməlik Cüveyniyə (1225-1283) hörmət əlamətinin təzahürüdür. Elxanlılar dövlətində "sahibi-divan" vəzifəsini daşıyan Cüveyni sonradan elm və mədəniyyət xadimi kimi tanınmış, eyni zamanda çox sayda elm xadimi yetişdirmiş, onları himayə etmişdir. Bu adamlar Əlaəddin Ataməlik Cüveyninin şərəfinə Cüveyninin titulundakı "sahib" sözünü öz adlarına əlavə etmək vasitəsilə himayəçilərinə olan ehtiramlarını bildirmişlər. "Əs-sahibi" (dövlət idarəçiliyində yüksək vəzifə tutan şəxs) nisbəsi qəbul etmişlər. Orta əsrlərdə "Sahib" ləqəbi dövlət aparatında işləyən yüksək vəzifəli şəxslərə verilmişdir. [5, s.19-20]

Güclü təməllərimizdən olan, şəxsiyyətlərdən biri də Şərqdə adı hörmətlə anılan, Türkiyədə bir çox elmi-tədqiqatın mövzusuna çevrilən Məhəmməd ibn Fəxrəddin Hinduşah Naxçıvanidir. XIV

əsrin məşhur tarixçisi, dilçi alimi, filosofu Məhəmməd Naxçıvani öz dövrünə görə gözəl təhsil almış şəxslərdən sayılırdı. O, Azərbaycan, fars və ərəb dillərini mükəmməl səviyyədə bilirdi. Yazdığı bir neçə əsər onu xalq arasında məşhurlaşdırdıqdan sonra alimi Təbrizə, Elxanilərin sarayına dəvət edirlər.

**Fəxrəddin Hinduşah ibn Səncər ibn Abdullah əs-Sahibi Naxçıvani** XIII-XIV əsrlərdə yaşamış azərbaycanlı tarixçi, dövlət xadimi, siyasət nəzəriyyəçisi, filoloq və ədib idi. Naxçıvanın Gilan qəsəbəsində dünyaya gəlmişdi. Hinduşah Naxçıvani Bağdadda "Müstənsiriyyə" mədrəsəsində təhsil almış, daha sonra bu mədrəsədə dərs vermişdi. O, qardaşı Seydəddin Mahmud Naxçıvani ilə birlikdə Elxanilərin sarayında qulluq etmişdi. Elxanilərin vəzirlərindən sahibi-divan Əlaəddin Ətaul-Mülk Cüveyni və onun oğlu Şəmsəddin Məhəmmədlə yaxın münasibətləri səbəbiylə "əs-Sahibi" ləqəbi ilə tanınmışdı. Seyfəddin Mahmud Naxçıvani h.674-cü (m.1275) ildə Elxanilər tərəfindən Qumla İsfəhan arasında yerləşən Kaşan şəhərinin hakimliyinə, qardaşı Hinduşah Naxçıvani isə onun naibliyinə, köməkçiliyinə təyin olunmuşdu. Ömrünün son illərində isə Hinduşah Naxçıvani Luristan atabəylərindən Nüsrətəddin Əhməd ibn Yusifşahın (1295-1330) sarayında işləmişdi. Alimin ölüm tarixi h.730-cu (m.1330) ildən sonraya təsadüf edir. Hinduşah Naxçıvani müxtəlif elm sahələrinə dair bir neçə əsərin müəllifi idi. Bunlardan ən məşhuru onun h.724-cü (m.1324) ildə yazıb başa çatdırdığı və Luristan atabəyi Əhmədə ithaf etdiyi, "Təcaribü's-Sələf" adlı farsca əsərdir. Bu əsər əslində dövlət xadimi və tarixçi Səfiyəddin Muhəmməd İbn ət-Tiqtəqənin (1262-1309) "Münyətul-Fuzəla fi Təvarixil-Xüləfa vəl-Vuzəra" adlı əsərinin ərəbcədən farscaya tərcüməsidir. İbnut-Tiqtəqə bu əsərini Mosul hakimi əmir Fəxrəddin İsaya ithafən qələmə almışdı. Tarix, siyasət, dövlət idarəçiliyi və rəsmi protokol qaydaları haqqında olan bu əsər, "Kitabü'l-Fəxri" adı ilə tanınmışdı. Lakin "Təcaribü's-Sələf" Hinduşah Naxçıvaninin əlavələri və şərhləri ilə, "Kitabü'l-Fəxri"dən bir neçə dəfə daha iri həcmli hala gəlmişdi. Hinduşah Naxçıvaninin digər bir əsəri isə, "Sihahü'l-Əcəmiyyə" adlı farsca-türkcə lüğətdir. Bu əsərin əlyazma nüsxələrindən biri Konya BYEK-də saxlanılır. Hinduşah Naxçıvani ədəbiyyatşünaslığa dair h.730-cu (m.1330) ildə "Məvaridul-Ədəb" adlı əsərini yazmışdır. O, həmçinin farsca şerlərin toplandığı "Divan"ın da müəllifidir. Seyfəddin Mahmud Naxçıvani Elxanilər tərəfindən Qumla İsfəhan arasında olan Kaşan hakimliyinə, qardaşı Hinduşah Naxçıvani isə onun naibliyinə, köməkçiliyinə təyin olunmuşdu. Ömrünün son illərində isə Hinduşah Naxçıvani Luristan atabəylərindən Nüsrətəddin Əhməd ibn Yusifşahın (1295-1330) sarayında işləmişdi. Alimin ölüm tarixi h.730-cu (m.1330) ildən sonraya təsadüf edir. Hinduşah Naxçıvani müxtəlif elm sahələrinə dair bir neçə əsərin müəllifi idi. Bunlardan ən məşhuru onun h.724-cü (m.1324) ildə yazıb başa çatdırdığı və Luristan atabəyi Əhmədə ithaf etdiyi "Təcarib əs-Sələf" adlı farsca əsərdir. Bu əsər əslində dövlət xadimi və tarixçi Səfiyəddin Muhəmməd İbn ət-Tiqtəqənin (1262-1309), "Munyətul-Fuzəla fi Təvarixil-Xuləfa vəl-Vuzəra" adlı əsərinin ərəb dilindən fars dilinə tərcüməsidir. İbn ət-Tiqtəqə bu əsərini Mosul hakimi əmir Fəxrəddin İsaya ithafən qələmə almışdı. Tarix, siyasət, dövlət idarəçiliyi və rəsmi protokol qaydaları haqqında olan bu əsər "Kitabül-Fəxri" adı ilə tanınmışdı. Lakin "Təcaribus-Sələf" əsəri Hinduşah Naxçıvaninin əlavələri və şərhləri ilə "Kitabul-Fəxri"dən bir neçə dəfə daha iri həcmli hala gəlmişdi. Hinduşah Naxçıvaninin digər bir əsəri isə "Sihahul-Əcəmiyyə" adlı farsca-türkcə lüğətidir. [6, s. 391]

XIV əsrin görkəmli ədəbiyyatşünaslarından Fəxrəddin Hinduşah Naxçıvaninin oğlu görkəmli tarixçi **Məhəmməd ibn Hinduşah Naxçıvani** (1293-1375) XIV əsrin məşhur tarixçi alimlərindəndir. "Şəmsi ül-Münşi ən-Naxçıvani" təxəllüsü ilə yazıb-yaradan Məhəmməd Naxçıvani "Sihah əl-furs" əsərini yaxın dostu, məşhur tarixçi və dövlət xadimi Rəşididdinin oğlu Xacə Qiyasəddin Məhəmmədə həsr etmişdir. Bu, fars dilində işlədilən 2300 sözün izahlı lüğətindən ibarət olan bir kitabdır. Elmi şəkildə yazılmış müqəddimədən, 25 hissədən və 43 fəsildən ibarət olan "Sihah Əl-fursi" lüğətində Azərbaycan xalqının həyat tərzinə, məişətinə dair etnoqrafik məlumatlar da öz əksini tapmışdır.

Məhəmməd ibn Hinduşah Naxçıvaninin məşhur tədqiqatı isə 1366-cı ildə yazılmış məşhur "Dəstur əl-katib fi təyin əl-məratib" ("Vəzifələrin müəyyən edilməsinə dair katib təlimatı") əsəri olmuşdur. Bu, orta əsrlərdə idarəetmə sisteminin qaydalarına həsr olunmuş ən mükəmməl əsərlərdən biri hesab olunur. "Vəzifələrin təyin edilməsində katib təlimatı" əsərində rəsmi dövlət sənədlərinin nümunələrinin təqdimi əsasında dövrün ictimai-siyasi, dini və iqtisadi-mədəni mənzərəsi haqqında

çoxlu sayda ensiklopedik məlumatlar verilmişdir. Bu, orta əsrlərdə meydana çıxmış dövlət idarəçiliyi sisteminin ensiklopedik kitabı kimi mühüm əhəmiyyət daşıyır. Zəngin elmi irsə malik olsa da, alimin əsərlərindən bizə ancaq adıçəkilən iki əsər gəlib çatmışdır. Məhəmməd Naxçıvani hərtərəfli elmə malik olmuş, tarix, dil, ədəbiyyat sahəsində sanballı əsərlər, şeirlər yazmış, həmçinin dövlət idarəçiliyində və dini işlərdə də tanınmışdır.

Naxçıvan bölgəsinin yetirmələrindən olan və həyatının bir hissəsini Naxçıvanda keçirən məşhur alimlərdən, sufi şeyxlərindən biri hesab olunan **Baba Nemətullah Naxçıvani** zəmanəsinin məşhur alimlərindən biri idi. Məşhur alim Məhəmmədəli Tərbiyyət "Danişməndani-Azərbaycan" əsərində qeyd edir ki, Babab Nemətullah Naxçıvani Şeyx Mahmud Naxçıvaninin oğlu, h.IX (m.XV) əsr ariflərindən və sufi şeyxlərindəndir. Baba Nemətullah Naxçıvani uşaq yaşlarından islami elmləri öyrənməyə başlamışdır. O, gənclik illərində zəmanəsinin bir çox alimlərindən, o cümlədən məşhur alim Xacə Mahmud Parsandan dərs almış və özü də qısa bir zamanda h.IX (m.XV) yüzilliyin məşhur alimlərindən birinə çevrilmişdir.

Şeyx Baba Nemətullah ibn Əbul-Fəzl Mahmud Naxçıvani Hənəfi məzhəbinə mənsub təfsir alimi olmaqla yanaşı, həm də təsəvvüf şeyxi idi. O, h.905-ci ildə (m.1499) Təbrizi tərk edərək, Anadoluya gedir və Qaraman vilayətinin Akşehir qəsəbəsində məskunlaşır. Alim burada "Əlvan Akşehri" kimi tanınmışdı. Akşehirdə təxminən 15 il yaşayan Baba Nemətullah 1514-cü ildə vəfat etmiş və orada da dəfn olunmuşdur.

Baba Nemətullah abid, zahid olmaqla yanaşı xoşrəftar və həlim insan olaraq da tanınırdı. O, Osmanlı zamanında yaşamış ən məşhur təfsir alimlərindən biri olmuşdu. Onun Qur'ani-Kərimin təfsirinə dair yazdığı risalələr hər kəs tərəfindən asanlıqla başadüşülən olmaqla yanaşı, həm də gözəl üslubda qələmə alınmışdı. Dövrünün həm də görkəmli filoloqu olan Baba Nemətullah Naxçıvani əsərlərini ərəb, fars və türk dillərində yazırdı. Onun tərtib etdiyi farsca-türkcə lüğət Konyada "Yusifağa" kitabxanasında saxlanılır. Alimin Nəbə surəsinə yazdığı "Təfsiru cuzin-Nəbə" təfsirinin bir nüsxəsi İstanbul Atif əfəndi kitabxanasında saxlanılır. Təsəvvüfə dair yazdığı "Risalə fit-Təsəvvüf" adlı əsərinin nüsxəsi İstanbul Nuri-Osmaniyyə kitabxanasında mövcuddur. Baba Nemətullahın təfsir sahəsindəki ən məşhur əsəri "Fəvatihul-İlahiyyə vəl-Miftahul-Qeybiyyə"dir. Əsərin mövcud olan əlyazma nüsxələri içərisində ən qədimi Baba Nemətullah Naxçıvaninin özü tərəfindən h. 902-ci ildə (m.1497) yazdığı avtoqraf nüsxə İstanbul Topqapı muzeyi kitabxanasında, sultan III Əhməd bölməsində saxlanılır. Əsər 1908-ci ildə İstanbulda iki cild halında çap olunmuşdur. Alimin, həmçinin Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" adlı əsərinə şərh və məşhur təfsir alimi Qadı Nasirəddin Beyzavinin "Ənvarü't-Tənzil və Əsrarü't-Tə'vil" adlı Qur'an təfsirinə h. 900/m.1495-ci ildə haşiyə yazmışdır. Baba Nemətullah Naxçıvani h. 920/m.1514-cü ildə Türkiyədə Akşehirdə vəfat etmişdir. Onun məzarı Baştəkkə yolu yaxınlığındadır.

Baba Nemətullah bir neçə qiymətli elmi əsər yaratmış və bir neçə orta əsr müəlliflərinin əsərlərinə şərhlər yazmışdır. Onun əsərlərində Qurani-Kərim insanlığın və eyni zamanda müsəlmanların həyatının ictimai-iqtisadi, siyasi, fərdi və dini həyat tərzlərini müəyyənləşdirən və hüquqi şəkildə əsaslandıran mükəmməl bir təlim kimi geniş təhlil edilmişdir.

Baba Nemətullah Naxçıvaninin "İlahi açmalar və qeybi açarlar", "Təsəvvüfə dair qardaşlara düzgün yol göstərmə" və "Nöqtənin sirlərinin şərhi" əsərləri orta əsrlərin bütün Şərq miqyasında yayılan qiymətli elmi mənbələri hesab edilir.

Qeyd etməliyik ki, mənbələrdə XIII-XVI əsr Naxçıvan elmi-ədəbi mühiti və bu mühitdə yaşayan alimlər haqqında məlumatlar olduqca azdır. Türk səyyahı Övliya Çələbinin "Səyahətnamə" si, Məhəmmədəli Tərbiyyətin "Danişməndani-Azərbaycan" adlı əsəridə verilən məlumatlar nəticələr əldə etməyimizə də imkan yaratdı. Bununla yanaşı, təqdim etdiyimiz məqalədə Naxçıvan elminə həsr olunmuş monoqrafiyalara tərəfimizdən müraciət edilmişdir. Haqqında məlumat verdiyimiz alimlərimizin həyat və yaradıcılığının daha geniş miqyasda araşdırılmasına hər zaman ehtiyac duyulur. Ümidvarıq ki, gələcəkdə bu istiqamətdə daha yeni elmi araşdırmalar olacaqdır.

**Nəticə**

*Naxçıvan Azərbaycan və ümumilikdə Şərq dünyasında zəngin elmi və mədəni irsə sahib bir region olaraq tarixə dərin izlər buraxmışdır. Bu bölgənin XIII-XVI əsrlər arasında yetişdirdiyi alimlər, təkcə öz dövrünün elmi inkişafına deyil, həm də sonrakı nəsillərə əvəzsiz töhfələr vermişdir. Nəsrəddin Tusi, Nəcməddin Naxçıvani, Kəmaləddin Naxçıvani və digər böyük alimlər, Naxçıvanın elm və mədəniyyət tarixindəki mühüm rolunu bir daha vurğulayır. Onların əsərləri, tədqiqatları və nailiyyətləri, yalnız Şərq dünyasında deyil, Avropada da böyük təsir yaratmış, dünya elminin inkişafına mühüm töhfələr vermişdir.*

*Xüsusilə, Nəsrəddin Tusinin rəhbərlik etdiyi Marağa Rəsədxanası dövrünün ən böyük elmi mərkəzlərindən biri olaraq, Avropa elminin inkişafına birbaşa təsir göstərmiş və bu günə qədər müxtəlif sahələrdəki elmi nailiyyətləri ilə xatırlanır. Naxçıvanın elmi irsi, həmçinin fəlsəfə, tibb, astronomiya və hüquq kimi sahələrdəki böyük inkişafı ilə bəşəriyyətin tərəqqisinə töhfə vermişdir.*

*Bugünkü günə qədər, bu zəngin irsin daha geniş şəkildə təhlil edilməsi və araşdırılması böyük əhəmiyyət kəsb edir. Naxçıvanın tarixi və mədəniyyəti yalnız yerli xalqın deyil, bütün dünyaya açılmış bir mirasdır. Bu torpaqda yetişən alimlərin əsərləri və elmi nailiyyətləri, gələcək nəsillər üçün ilham mənbəyi olmağa davam edir. Gələcəkdə bu sahədə aparılacaq daha dərindən elmi araşdırmalar, Naxçıvanın dünya mədəniyyətindəki yerini daha da aydınlaşdıracaq və bu zəngin irsin layiqincə qiymətləndirilməsinə imkan yaradacaqdır.*

**Ədəbiyyat siyahısı:**

1. Həbibbəyli, İ. Nuhçıxandan Naxçıvana / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2015. – 846 s.
2. İbrahimov, S. Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi / S.İbrahimov. – Naxçıvan: Əcəmi, – 2018. – 104 s.
3. Naxçıvan Ensiklopediyası: [2 cilddə] / red. hey. B.Budaqov. [və b.] – Naxçıvan: AMEA Naxçıvan bölməsi, – c.1. – 2005, 360 s.
4. Naxçıvan Ensiklopediyası: [2 cilddə] / red. hey. B.Budaqov. [və b.] – Naxçıvan: AMEA Naxçıvan bölməsi, – c.2. – 2005, 381 s.
5. Piriyev, V. Naxçıvan tarixindən səhifələr / V.Piriyev. – Bakı: Müəllim, – 2004. – 170 s.
6. Tərbiyyət, M. Danişməndane-Azərbaycan / M.Tərbiyyət. – Bakı: Azərnəşr, – 1987. - 464 s.

**Saba Verdiyeva**

## About prominent figures of the scientific environment of Nakhchivan in the middle ages

***Summary***

Researching the life, creativity and activities of scientists, philosophers and wordsmiths who had exceptional services in the history of Azerbaijan's literary-artistic and social-philosophical thought, as well as in the formation and development of its literary environment from ancient times to the present day, is one of the urgent problems facing our science of literature. Among those problems, the study of the fate, art and multifaceted activities of the Nakhchivan literary environment and the personalities raised by this environment has a special place.

For centuries, Nakhchivan has been one of the main development centers of Azerbaijani science. Its location on ancient caravan routes, transit connections, borders with several states, access to the East and West have created conditions for the development of science in Nakhchivan since ancient times. Although the territory of Nakhchivan became a battlefield during invasions in the 13th

and 14th centuries, and the country was in crisis, all fields of science continued their development. Madrasahs, which functioned in the Middle Ages, also performed the function of an important scientific center. All this was one of the main factors that encouraged the development of Nakhchivan science. There are countless prominent scientists who were originally from Nakhchivan and played a special role in the formation of Azerbaijani science, including the founder of Maraga observatory, prominent Azerbaijani scientist Nasireddin Tusi.

As in other advanced centers of science and education in Azerbaijan, in the 13th-16th centuries, there was a certain development in the field of science in Nakhchivan, and a number of prominent scientists grew up in the region. In the article, the encyclopedic scientist Khaja Muhammad Nasreddin Tusi, who had invaluable services in the development of the scientific and literary environment of Nakhchivan of the XIII-XVI centuries, Gazi Najmeddin ibn Ahmed ibn Abubakr ibn Muhammad Nakhchivani, Kamaladdin Abulfazail Muhammad ibn Abulfazail, who had a wealth of knowledge in the field of medicine, Sanjar ibn Abdulla, the XIV century We have talked about the works of famous scholars such as famous literary critic Fakhreddin Hindushah Nakhchivani, Muhammad ibn Hindushah Nakhchivani, Baba Nematullah Nakhchivani.

***Keywords:*** *Azerbaijan, Nakhchivan, science, scientist, philosopher, activity*

*Filologiya üzrə fəlsəfə doktoru*
***Tünzalə Seyfullayeva*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*